# N. Əbdülrəhmanlının "Qapı"sı önündə düşüncələr - VURĞUN ƏYYUB

**Hekayə təhlilləri - I yazı**




Nərimanın "Qapı" **hekayəsi** üslubu, quruluşu baxımından nəsr ənənəmizdə yeni və orijinaldır. Hekayənin mətni bir nəfərin dilindən söylənilib. Yazıçı ilk cümlədəncə oxucunu hadisənin gedişatına daxil edir. Müəllifin usta qələmi çətinlik çəkmədən bizi fikirdən fikrə, hadisədən hadisəyə aparır. Hadisə deyəndə ki, burada hansısa geniş, ətraflı təsvir olunan hadisə(lər) yoxdur. Hekayənin qəhrəmanlarından birisi evinin divarından qapı açmaq istəyir. Bu zaman yaraladığı barmağını həkimə göstərmək üçün gedərkən yolda heç də aydın xatırlamadığı Köhnə Dostu ilə rastlaşır. Köhnə Dost dayanmadan dostluqları, gileyləri, həyatı, qayğıları, uğurları barədə üyüdüb tökür. Qəhrəmanımız isə köhnə, boz plaşının cibində gizlətdiyi yaralı barmağının zoqqultusu içərisində həmsöhbətindən can qurtarmaq istəyən adam tövrü ilə hərdən bir ağızucu olsa da cavab verir, bir tərəfdən dostunun söylədiklərini oxucuya nəql edir, digər tərəfdən də öz həyatı, düşüncələri, başına gələn qəziyyə barədə danışır. *(Hərçənd ki, çəkicin sol əlin orta barmağının üstünə vurulması səhnəsini, təxəyyülümə nə qədər güc versəm də, gözlərim önündə canlandıra bilmədim. Müəllifin buradakı təsviri dəqiq deyil.)* Sonunda Köhnə Dost axır ki, əl çəkib gedir, qəhrəmanımız isə yaralı barmağını göstərmək üçün yanına getdiyi uşaqlıq dostu həkimin bağlı qapısı önündən geri dönməli olur. Vəssalam! Hekayənin süjeti və qısa məzmunu bundan ibarətdir!

Hekayədə iki kişi, iki qadın, bir də heç cür açılmaq bilməyən, müxtəlif tərəflərdən türlü mənalandırmalara yol açan Qapı obrazı var. Yazıçı iki kişi qəhrəmanının söylədikləri ilə (daha

doğrusu, bir Kişinin dilindən söylənilənlərlə) hamımıza tanış olan sosial gerçəklikləri bədii təsvir və təhlil obyektinə çevirir. Amma fərqli bir dillə, fərqli bir üslubla. Hekayənin bədii-estetik gücü, təsir qüvvəsi də bu fərqliliyindədir. Oxucu əsas qəhrəmanın təhkiyəsindən, monoloqvarı söylənilən fikirlərdən, kiçik detallardan həmin gerçəkliklər haqqında müəyyən təsəvvür əldə edir: gerisi artıq oxucu fantaziyasının işidir. Əslində, fantaziyanın üzərinə də elə bir yük düşmür. Çünki həmin detalların hər birimizin başına gələn, qarşılaşdığımız həyat gerçəkliklərinə tutduğu işıqda hər şey ayrıntıları ilə gözümüz qarşısında canlanır.

Hekayədə bir-birinə zidd iki hal, iki fərqli insan və bunların təmsil etdiyi iki fərqli həyat tərzi, qiymətləndirmə var: bir tərəfdə həyatın çətinlikləri qarşısında əzilmiş, arvadının danlaq və məsxərəsinə tuş olan qəhrəmanımız, digər tərəfdə isə maddi baxımdan heç bir qayğısı olmayan, ancaq hiss olunur ki, yenə gözü doymayan, hər şeyə sahib olmaq ehtirası ilə daima qaçaqaçda olan Köhnə Dost! İki dost arasındakı söhbət hekayədə bir növ karkas rolunu oynayır. Yazıçı hekayəsini bu karkas içərisində gözəl bir şəkildə işləmişdir. Hekayəni yazarkən hər hansı bir münasibət sərgiləmədən, sadəcə, qəhrəmanlarının əməllərinə, xarakterlərinə, söhbətlərinə ayna tutmuşdur.

Yazıçı hekayəsinin əsas qəhrəmanının məşğuliyyəti, kimliyi, nəçiliyi, yaşı, zahiri görkəmi barədə bir söz demir. Tək bir yerdə Köhnə Dostun dediklərindən anlayırıq ki, qəhrəmanımız yazı-pozu adamıdır. O da diqqətçəkəndir ki, müəllif qəhrəmanından heç də böyük amallar sahibi, əvəzsiz mənəvi dəyərlər yiyəsi kimi danışmır, onun təmizliyindən, doğruçuluğundan, düşüncə və xəyallarından söhbət açmır, hər hansı şəkildə ona rəğbətini göstərmir...amma oxucu inanır ki, bu qəhrəman önündə olan qapıları açmaq üçün cilddən-cildə düşməyi bacarmayan, bağlı qapılara nəyin bahasına olursa olsun açar tapmaq istəməyən birisidir...və onu sevir, onun taleyinə acıyır və az qalır ki, əlinə çəkic-balta götürüb bağlı qapıları açmaqda yardım üçün bu insanın yanına tələssin.

Köhnə Dostun şəxsiyyətinin, həyatının mənasını əmlak, ev-eşik, bağ, avtomobil təşkil eidr. Onun guya qəhrəmanımız üçün darıxdığı, arada yaranan soyuqluğa, ayrılığa görə özünü danlaması qeyri-səmimidir, oxucuda hər hansı bir xoş duyğu oyatmır. Köhnə Dostun nitqində qəhrəmanımızla "qədimi" dostluqlarına dair bircə dənə də olsun işıqlı, ürək titrədən xatirənin olmamasını, özünün bü günkü həyatı, qayğıları barədə isə yerli-yataqlı danışmasını təsadüfi hesab etmək olmaz; bu obrazın mahiyyətini açan bir bədii fənddir. Oxucu anlayır ki, Köhnə Dost bizim kasıb, "fərsiz", zavallı qəhrəmanımızın önündə ədabazlıq edir, əldə etdiyi uğurları ilə öyünür. Sadəcə, bütün bunları özünüdanlaq, şikayət, həyatdan narazılıq donuna bürüyür. Yazı-pozu adamı olan qəhrəmanımızın bir sezgisi Köhnə Dostun fəndini anlamaq üçün kifayətdir: **"bütün bunları deyəndə üzündə bezginlikdən artıq gizlədə bilmədiyi məmnunluq vardı, yəqin, gözlərinin qabağına evinin rahatlığını gətirib öz içində ləzzət alırdı;"**

Köhnə Dost öz həyatından şirnikləndirici detallar söyləməklə (gəlirli iş, yeni tikilidə müasir dəblə bəzədilmiş mənzil, bağ evi, bahalı maşın və s.) sanki qəhrəmanımızı bağlı Qapıları açmağa şirnikləndirmək istəyir. Hekayədə müəllifin (elə qəhrəmanın özünün də) Köhnə Dosta qarşı hər hansı bir mənfi münasibəti açıq ifadə olunmayıb. Bu münasibət təhkiyənin içərisində çox ustalıqla gizlədilib: söhbət zamanı gözlərini ora-bura qaçırmasında, qəhrəmanımızın Köhnə Dostdan tez yaxa qurtarmaq istəyində, sözlərin, ifadələrin arxa planında bu yaxşı olmayan münasibəti sezmək mümkündür. *(Onu da deməliyəm ki, yazıçı Köhnə Dostun belə canfəşanlığını, qır-saqqız olmasını,*

*qəhrəmanımızın ona münasibətinin buz soyuqluğunu psixoloji-bədii cəhətdən çox da yaxşı əsaslandırmayıb. Bunun üçün bir-iki bədii detalın yeri aydınca görünməkdədir.)*

Qadınlar yazıçı təsvirində fəal deyillər. Onların görkəmi, hansı peşənin sahibi olduqları barədə avtobioqrafik məlumatlar verilmir. Qadın qəhrəmanların xarakteri, ailə həyatındakı rolları, dünyaya baxışları barədə yalnızca kişi qəhrəmanların dediklərindən məlumat ala bilirik. Köhnə Dostun xanımı daha aktivdir, hiss olunur ki, kişisini yönəldən də odur. Maddiyyata bağlılığı, həyati ehtirasları daha güclüdür. İstəkləri sərhəd tanımır. Ərinin öyündüyü uğurlar, məhz, onun yönətmənliyi (rejissorluğu) ilə qazanılmışdır. Qəhrəmanımızın xanımı isə daha çox deyintiləri, danlaqları ilə gözümüz önündə canlanır. Qəhrəmanımızın ustalıqla söylədiklərindən bəlli olur ki, onun bütün deyintilərinin, danlaqlarının, ərinə qoşduğu epitetlərin arxasında tək bir istək və ehtiyac var: yeni tikilmiş divardan qapı açmaq! Amma oxucu hiss edir (və yaxud təsəvvüründə canlandırır) ki, onun bu kiçik istəyi deyintiləri üçün sadəcə bir bəhanədir, onun arxasında daha ciddi mətləblər dayanır, daha ciddi arzular ifadə olunur: dünyayla ayaqlaşmaq, daha çox və böyük maddi şeylər əldə etmək! Bax, burada beşinci obrazın – Qapının simvolikası açılır və hekayənin bədii-sosial dəyərini, ideyasını anlamaqda oxucuya yardımçı olur. Bu obraz sadəcə bir otaqdan o biri otağa keçidi ifadə edən maddi, əllə toxunula bilən bir əşya olmaqdan çıxaraq daha geniş mənalara açılan Qapıya çevirilir. Qapı simvolu folklorumuzda, danışıq dilində fəaldır: alqışdan, qarğışdan tutmuş, şeir, nəsr, dram mətnlərində, teatr estetikasında geniş yayılıb. N.Əbdülrəhmanlı da bu simvoldan uğurla istifadə etmişdir.

Hekayədə Qapı əsərin qəhrəmanının xarakterini açmaqda bir vasitə rolunu oynayır. Qəhrəmanımız üçün Qapı açmaq zülmdür, əzabdır: **"...əslində, mənim ömrüm elə qapı açmaqdan ibarətdi, qapı açmaqsa, məndən ötrü dünyanın ən ağır işiydi..."**

Hekayədə "qapı açmaq" ifadəsi bir neçə dəfə təkrarlanır və sözün hərfi mənasında divardan qapı açmaqdan daha böyük məna ifadə edir. "Qapı açmaq" xoş güzərana çatmaq, dəbdəbəli ev-eşik sahibi, işi başqalarına gördürə bilmək imkanına sahib olmaq, problemlərini həll etmək üçün kimlərinsə bığının altından keçmək deməkdir. Qapı yaltaqlıqla məğrurluq, dürüstlüklə yalançılıq, təmizliklə murdarlıq arasındakı sərhəddir. Xanımının danlaqlarından qurtulması, barmağını çəkic altında qoymaması üçün qəhrəmanımızın bu Qapını açması lazımdır. Bu isə qəhrəmanımız üçün "dünyanın ən ağır işidir." Hekayəni oxuduca anlayırsan ki, qəhrəmanımıza ən ağır iş kimi görünən yalnızca divardan qapı açmaq yox, elmin, idrakın, tərbiyənin, istedadın qiymətləndirilmədiyi, təmizliyin bacarıqsızlıq, doğruluğun əfəllik hesab edildiyi bir dünyanın qapısını açmaqdır.

Hekayə bütünlüklə danışıq dilinin intonasiyası, ifadə imkanları, fəndləri üzərində qurulub. Bunun nəticəsidir ki, hekayənin mətni birnəfəsə söylənmiş tək bir cümləni xatırladır. *( Biz öz həyatımızda bununla rastlaşmışıq. Azərbaycan dilçiliyinin böyüklərindən olan professor Əbüdləzəl Dəmirçizadə ötən əsrin 70-ci illərində bizə dərs deyirdi. Bir gün mühazirənin bitməsinə yarım saat qalmış professordan xahiş etdik ki, xəstə olan tələbə yoldaşımıza baş çəkməli olduğumuz üçün bizi 20 dəqiqə tez buraxsın dərsdən. Professor son cümləsini dedikdən sonra bizi buraxacağına söz verdi...Və bu son cümlə bağlayıcıların, ümumiləşdirici sözlərin, intonasiyanın və sairənin iştirakı ilə təxminən 15-16 dəqiqə çəkdi!)* Nəriman da danışıq dilinin və yazı texnikasının, qrammatikanın verdiyi imkanlardan istifadə edərək hekayəsini bir cümlə şəklində qura bilmişdir.

Hekayədə tez-tez "deyir" kəlməsi ilə rastlaşırıq. Bu kəlmə ilə yazıçı Köhnə Dostunun fikirlərinə, daxili dünyasına Qapı açır, təhkiyənin istiqamətini hər dəfə ona yönəldir, onun danışmasına imkan yaradır. "Deyir" kəlməsi hekayəyə bir dastançılıq, folklor üslubu, əhval-ruhiyyəsi gətirir ki, bu da təhkiyəni istədiyi kimi yönləndirməyə müəllifə imkan yaradır.

Hekayə boyu dəfələrlə təkrarlanan, yada salınan "qapı açmaq", yaralı barmağın zoqqultusu oxucunu daima əsas fikrin, bədii niyyətin üzərinə qaytarır, onun fikrinə dağılmağa, azmağa qoymur. Birinci şəxsin dilindən söylənilən hadisə və fikirləri dinləyərkən biz özümüzü həmsöhbət olan dostların yanında hiss edirik, sanki qapı açmağı bacarmayan ərini xanımı elə bizim gözümüz qarşısında danlayır, qınayır. Qəhrəmanımızın və onun dostunun söylədiklərindən günlük həyatımızın lövhələri gözümüz qarşısında canlanır.

Hekayənin dili mövzu və məzmuna uyğun olaraq sadə və aydındır. Təhkiyə rəvan, nizamlı bir şəkildə axıb gedir. Yazıçı mürəkkəb bədii vasitələrə əl atmamış, gözqamaşdıran təşbehlərə, başfırladan mübaliğələrə yer verməmişdir. Hekayə mətninin birinci şəxsin-qəhrəmanın dili ilə nəql olunması bu hekayə üçün uğurlu seçilmiş üsuldur. Əgər araya başqa obrazlar girərsə, mövzu yayılar, məzmun ağırlaşar, hekayə öz bədii toxumasının bütünlüyünü və bütövlüyünü itirmiş olardı. Qəhrəmanımızın Köhnə Dostun da "əziyyətini" öz üzərinə götürməsi – onun da söylədiklərini oxuculara çatdırmaq zəhmətinə qatlaşması bədii fənd kimi özünü doğruldur. Bu yazıçıya imkan verir ki, oxucunun diqqətini yayındıracaq detalları, təfərrüatları, hadisə və fikirləri bir kənara atsın, bir növ redaktə etsin. Qəhrəmanımızın dili ilə danışan, sözsüz ki, yazıçının özüdür. Amma yazıçı ilə qəhərmanımız arasında bərabərlik işarəsi qoymaq düzgün olmazdı. Müəllif qəhrəmanın simasında bəlli şərtlər ucbatından həyatın çətinlikləri qarşısında çarəsiz qalan, həyatda artıq adam kimi görünən insanlardan söz açmışdır.

***Vurğun Əyyub***
***Xəzər Universitetinin dosenti***

Mənbə: (Xeber365) – Yaradıcı qrup Müəllif: XƏBƏR365

N., Əbdülrəhmanlının, "Qapı"sı, önündə, düşüncələr, -, VURĞUN, ƏYYUB,